# EYNİ ULDUZUN ALTINDA

CON QRIN

Tərcüməçi:
Ziyad Quluzadə

QANUN NƏŞRİYYATI

# THE FAULT IN OUR STARS

JOHN GREEN

Xərçəng xəstəliyinə tutulmuş on altı yaşlı Heyzel Qreysin bir neçə il də yaşamağına təminat verən tibbi möcüzəyə baxmayaraq, xəstəliyi ölümcüldür. Həkimlərin ona qoyduğu diaqnozla birlikdə ulduzlar da Heyzelin həyat nağılının sonuncu hissəsini çoxdan yazıb.

Di gəl ki, Oqastes Vaters adlı yaraşıqlı bir gəncin Xərçəng Xəstəsi Uşaqlar Üçün Dəstək Qrupuna qatıldığı gündən Heyzelin həyatı tamamilə başqa istiqamətə yönəlir. Bu ağıllı oğlanın cazibəsi qızın yeni həyat hekayəsinin başlamasına səbəb olur.

Con Qrin təvazökar bir üslubda və bütün səmimiyyətiylə qələmə aldığı romanda yaşamağın və sevməyin həyəcanlı, gülməli və faciəvi cəhətlərini bütün çılpaqlığıyla təsvir edir...

***ESTER ERL üçün!***

"Yaşamağı təsdiqləyən bir nağıl…
Dərin, həssas, təcrübəsiz və kədərli
– bu sizi gözyaşlarına qərq etməsə
belə, dərin düşüncələrə dalmağa vadar
edəcək, hətta özünüzə aşiq olacaqsınız.
Möhtəşəm bir mütaliə!"
– *MİZZ*

"Gülməli… Kəskin…
İşıqlı…"
– *Entertainment Weekly*

"Qara yumor hissi ilə və həssaslıqla yazıldığı
üçün oxucunu çox dərinliklərə çəkib aparır,
bu sadəcə sizin diqqətinizi cəlb etməyəcək,
eyni zamanda bir dahiyanəliklə sizin
emosiyalarınızı öz cənginə keçirəcək".
– *Daily Express*

"Həddindən artıq
parlaq bir kitab".
– *Guardian*

"Təsiredici… Yumorun və
Tragediyanın duyğulara
kəskin zərbəsi".
– *Codi Pikolt*

"Əyləncədən çox
kədərlidir".
– *Good Housekeeping*

"Kədərli komediya, eşq sərgüzəşti və
əyləncəli oyun, həyat və ölüm haqqında
dərin düşündürücü böyük suallar".
*– Horn Book, starred review*

"Həyat və ölüm haqqında
gözəl kədərli bir hekayə".
*– School Library Journal,
starred review*

"Bu Möhtəşəmdir!"
*– Marian Keyes, author of
"The Brightest
Star in the Sky"*

"Parlaq bir peşəkarlıqla yazılmış roman...
Oxucular romanın hər səhifəsində riqqətə
gələcək. Qrinin parlaq imzası özünü
dialoqların dəqiq strukturunda və yumor,
istək və intelektiylə yaratdığı kəskin
xarakterlərində göstərir".
*– Kirkus Starred review.*

"Mən heç vaxt belə dərin təsirli
bir kitab oxumamışdım".
*– One of 200.000 five-star
reviewers on GoodReads.com*

## MÜƏLLİFİN QEYDİ:

Bu, əslində, yazıçının qeydlərindən əlavə, əvvəlki səhifələrdə xırdaca şriftlərlə yazılanlara görə müəllifin müraciətidir. Bu kitab bir fantaziyanın məhsuludur. Mən bu kitabı uydurmuşam. Haqqında danışılan hekayənin həqiqiliyini araşdırmağın nə romanlara, nə də oxuculara bir xeyri var. Bu cür cəhdlər göstərmək fantaziya və təxəyyülün məhsulu olan hekayələrin əhəmiyyətli olduğu fikrinə qarşı sərt mövqedir. Bu düşüncə mövzumuzun əsas mahiyyəti hesab olunur.

Bu barədə bizimlə həmfikir olsanız, şad olaram!